# Con Hopkins Universiteti

Con Hopkins Universiteti *(Johns Hopkins University)* ABŞ-ın Merilend ştatında - Baltimor şəhərində yerləşən özəl elmi-tədqiqat mərkəzidir. Böyük Britaniyanın "QS World University Rankings" jurnalının 2015-2016-cı il üzrə dünya universitetlərinin reytinqinə əsasən Con Hopkins Universiteti 16-cı, "The Times Higher Education World Reputation Rankings" dərgisinin 2016-cı il reytinq sıralamasında isə 22-ci yerdə qərarlaşıb. Ali məktəb Amerika Universitetləri Assosiasiyasının 14 üzvündən biridir. Universitet Amerikanın milli universitetləri reytinqində 2016-cı il üzrə 10-cu yerdədir. Bu qədim ali təhsil ocağının dünya elminin inkişafında əldə etdiyi mühüm və əlamətdar yeniliklər danılmazdır.

**Yerləşir:** ABŞ, Merilend ştatı, Baltimor
**Yaranma tarixi:** 1876-cı il
**Tipi:** Özəl
**Akademik heyəti:** 4281 nəfər
**Tələbələrin ümumi sayı:** 21372 nəfər
**Rəsmi saytı:** www.jhu.edu



## Tarixi

Amerika xeyriyyəçisi Con Hopkins 1873-cü ildə varisi olmadığından öz var-dövlətini universitet və xəstəxana tikintisinə sərf etməyə qərar verib və bu məqsədlə vəsiyyətnaməsində 7 milyon dollar ayrılmasını qeyd edib. ABŞ tarixində bu, ən böyük məbləğdə xeyriyyə vəsiyyətnaməsi olub. Beləliklə, 1876-cı il fevralın 22 -də yaradılan ali təhsil ocağına Con Hopkins Universiteti adı verilib. Universitetin ilk prezidenti Daniel Gilman olub. Amerikanın ən qədim ali təhsil ocaqlarından olan Con Hopkins Universiteti öz fəaliyyətinə də Daniel Gilmanın andiçmə mərasimində səsləndirdiyi "Biz nəyə can atırıq" sualı ilə başlayıb. Prezident sualını belə cavablandırıb: "Tədqiqatları rəğbətləndirmək, elmi və yaşadıqları cəmiyyəti inkişaf etdirən alimlərə kömək etmək".

Buna görə də yarandığı gündən təhsil ocağının məqsədi elmi tədqiqatların rəğbətləndirilməsi, elmin inkişafında müstəsna xidmətləri olan alimlərin maddi vəziyyətlərinin yüksəldilməsi olub. Con Hopkins Universiteti Vilhelm fon Humbolt, Fridrix Ernst Şleyermaxer tərəfindən hazırlanmış alman modelini ilk tətbiq edən ABŞ ali məktəbidir. İlk dəfə bu universitetdə mühazirələrlə birgə seminarlar keçirilib. Con Hopkins Universitetində diplomdansonrakı təhsilin inkişafına böyük əhəmiyyət verilir. Universitet doktorluq dissertasiyalarını çoxsaylı elmi jurnallarda, eləcə də 1878-ci ildə yaradılmış Con Hopkins Universiteti mətbuatında ("Con Hopkins Universiteti qəzeti", "Con Hopkins jurnalı", "Bölmə nəşrləri", "Yeniliklər buraxılışı") dərc etdirən ABŞ-ın ilk ali təhsil ocağıdır.

1889-cu ildə burada Con Hopkins Hospitalının tikintisi başa çatır. 1893-cü ildə Tibb Məktəbi yaradılır və məktəb qızlarla oğlanların birgə təhsil aldığı ilk tibb məktəbi kimi tarixə düşür. Tibb sahəsini inkişaf etdirmək məqsədilə Uilyam Osler, Uilyam Halsted, Hovard Kelli, Uilyam Uelç kimi dünyada tanınmış müəllimlər Tibb Məktəbinə dəvət olunurlar.

1909-cu ildə universitetdə təhsilin davam etdirilməsi proqramı qəbul edilib, 1916-cı ildə isə burada ölkədə ilk İctimai Səhiyyə Məktəbi açılıb. 1942 -ci ildə, ikinci Dünya müharibəsi dövründə universitetin tətbiqi fizika laboratoriyası müdafiə xarakterli əsas dövlət sifarişlərinin yerinə yetirilməsi ilə məşğul olub. 1950-ci ildə Vaşinqtonda universitetin Nitsşe Beynəlxalq Tədqiqatlar və 1977-ci ildə Baltimorda Pibodi İnstitutu yaradılıb.

XXI əsrin əvvəllərində isə ali məktəbdə yeni institutlar və laboratoriyalar yaradılıb, Con Hopkins Pedaqoji Məktəbi və Keri biznes məktəbi fəaliyyətə başlayıb.

## Universitet bu gün

Con Hopkins Universitetində tələbələrə təhsil, biznes və tibb ixtisasları, beynəlxalq tədqiqatlar, ictimai və təbiət elmləri, humanitar elmlər, incəsənət və musiqi sahəsində 240 tədris proqramı təklif olunur. Universitetin Merilend və Vaşinqtonda, eləcə də İtaliya, Çin və Sinqapur da daxil olmaqla 10 kampusu var. Ali məktəbin əsas kampusu Homvud adlanır. Kampusun Şərqi Baltimorda yerləşdiyi 140 hektarlıq ərazi 1900-cü ildə əldə olunub. Kampusdakı bütün tikililər qırmızı kərpic və ağ mərmərdən inşa edilib, onlar gözoxşayan görünüşə malikdirlər. Hazırda bu binalar tarixi abidə hesab olunur və dövlət tərəfindən qorunur. Kampusun yaxınlığında Baltimor İncəsənət Muzeyi yerləşir. Homvudun ərazisində məşhur Deker bağı vardır. Əvvəllər Botanika bağı adlanan və biologiya kafedrasının əməkdaşları tərəfindən istifadə olunan bu bağ hazırda estetik məqsədlərə xidmət edir. Homvudda yerləşən Kosmik Teleskop Elmi İnstitutu universitetin ən böyük rəsədxanalarındandır. Bu institut Habbl teleskopu vasitəsilə məlumatlar toplayır, onları analiz və idarə edir. Con Hopkins Universitetinin nəzdində aşağıdakı məktəb və institutlar fəaliyyət göstərir: Zenvil Kriger İncəsənət və Elmlər Məktəbi universitetin əsas institutudur, tələbələrə 60-dan çox ixtisas üzrə proqram təklif edir. Bu məktəb Homvud kampusunda yerləşir. Uaytinq Mühəndislik Məktəbi Homvudda yerləşir, tələbələrə yalnız mühəndislik proqramları təklif edir. Təhsil Məktəbi 1909-cu ildə biznes və təhsil üzrə ixtisaslaşmış məktəb kimi yaradılıb, 2007-ci ildən biznes və təhsil bölmələri ayrılıb və iki müxtəlif məktəb yaranıb. Tibb Məktəbi Şərqi Baltimorda universitetin Tibbi İnstitutlar kampusunda, Con Hopkins Hospitalının yanında yerləşir. Bu məktəb dünyanın ən yaxşı tibb məktəbi və biotibbi tədqiqat mərkəzi kimi tanınır. Tibb Bacısı Məktəbi Con Hopkins Hospitalının və Tibb Məktəbinin yaxınlığında yerləşir. Blumberq İctimai Səhiyyə Məktəbi 1916-cı ildə yaradılıb, dünyanın ən böyük səhiyyə məktəblərindəndir. ABŞ-ın *"U.S. News & World Report"* jurnalı tərəfindən dünyanın bir nömrəli ictimai səhiyyə məktəbi adlandırılıb. Keri Biznes Məktəbi 2007-ci ildə yaradılıb və Mərkəzi Baltimorda Maunt Vernonda yerləşir. Pibodi İnstitutu 1857-ci ildə yaradılıb, Mərkəzi Baltimorda Çarlz küçəsində yerləşir. ABŞ-ın ən qədim konservatoriyalarından biri olan bu institut 1977-ci ilədək Con Hopkins Universitetinin bölməsi kimi fəaliyyət göstərib. Hazırda institut müstəqil olaraq tələbə qəbul edir və dərəcələr verir. Paul Nitsşe Qabaqcıl Beynəlxalq Tədqiqatlar Məktəbi 1943-cü ildə yaradılsa da 1950-ci ildən Con Hopkins Universitetinin bir hissəsinə çevrilib. Məktəb Vaşinqtondakı kampusda yerləşir, beynəlxalq problemlər, münasibətlər, diplomatiya və iqtisadiyyatın öyrənilməsi ilə məşğuldur. Bu təhsil müəssisəsinin Boloniyada, İtaliyada, Nankində və Çində filialları fəaliyyət göstərir. Tətbiqi Fizika Laboratoriyası Merilend ştatında Laurel şəhərində yerləşir, ABŞ-ın Təhlükəsizlik Departamenti, NASA (Aeronavtika və Kosmik Fəzanın Tədqiqatları üzrə ABŞ Milli İdarəsi), dövlət və vətəndaş müəssisələrinin məqsədləri üçün tədqiqatlar aparır. Bu laboratoriya Con Hopkins tibb müəssisələri ilə birgə 100-dən çox biotibbi qurğular yaradıb, həmçinin Homvudda yerləşən Kosmik Teleskop Elmi İnstitutu ilə sıx əlaqələr qurur.

Universitetin Tibbi İnstitutlar kampusunda Tibb və Tibb Bacısı məktəblərindən başqa, Con Hopkins Hospitalı, Con Hopkins Beyvyu Tibb Mərkəzi, Con Hopkins Sinqapur Beynəlxalq Tibb Mərkəzi, Hovard ümumi Dairə Hospitalı fəaliyyət göstərir. Universitetdəki elmi-tədqiqat mərkəzlərindən Dil və Nitq Mərkəzini, Con Hopkins Siyasi Elmlər, Berman Biotexnika, Con Hopkins İnformasiyanın Təhlükəsizliyi institutlarını qeyd etmək olar.

Con Hopkins Universitetinin əsas xüsusiyyətlərindən biri burada təhsil alan tələbələrin önəmli tədqiqatlarda fəal iştirak etməsidir. Tələbələrin 80%-i oxuduqları 4 il ərzində öz sahələri üzrə müstəqil tədqiqatlar aparır. Ümumiyyətlə, bu ali təhsil ocağı ABŞ-da tədqiqatlara ən çox sərmayə qoyan universitetlərdən biridir. Xüsusilə, universitet mədəniyyət, musiqi, tarix, biologiya və təbii elmlər, biotibbi texnika, yaradıcılıq, ingilis dili, roman dilləri, iqtisadiyyat, beynəlxalq tədqiqatlar, tibb, nevrologiya, xəstələrə qulluq, səhiyyə, siyasi nəzəriyyə sahələri üzrə əldə etdikləri nailiyyətləri ilə fəxr edir. 1999-2009-cu illər ərzində Con Hopkins Universiteti dünyada ən çox məqalələri çap olunan tədqiqat mərkəzləri siyahısında olub (Harvard Universiteti və Maks Plank Cəmiyyətindən sonra üçüncü yerdə).

Con Hopkins Universitetinin kitabxana sistemi 3.7 milyon cilddən çox kitaba malikdir. Burada 171 min çap və elektron jurnal, 900 min elektron kitab, o cümlədən elektron resurslar tələbələrin istifadəsindədir. Universitetin əsas kitabxanaları Homvud kampusunda yerləşən Şeridan və Milton Eyzenhauer kitabxanalarıdır. 1964-cü ildə açılan Milton Eyzenhauer kitabxanası (tələbələr tərəfindən "MSE" adlandırılır) 3.7 milyon cilddən çox kitaba malikdir. Kitabxanaya ABŞ-ın sabiq prezidenti Duayt Eyzenhauerin qardaşı, universitetin prezidenti olmuş Milton Eyzenhauerin adı verilib. Qeyd edək ki, Miltonun Con Hopkins Universitetində prezidentliyi zamanı təhsil ocağı sürətlə inkişaf edib, universitetin gəlirləri üç dəfə artıb, geniş tikinti-quruculuq işləri aparılıb. Universitetin inkişafı üçün gördüyü işlərə görə Milton Eyzenhauer "fəxri prezident" adına layiq görülüb.

Universitetin başqa kampuslarında yerləşən kitabxanalardan tibb sahəsi üzrə Uiliyam Velç, Tibb Tarixi İnstitutu, Adolf Meyer, Beyvievdə Harold Harison, Cons Fridenvold Memorial (Uilmer Göz İnstitutu), Karol Qrey Tibb Bacısı Resurs Mərkəzi, Abraham Laylinfild, Keri Biznes Məktəbinə aid Kolumbiya,Vaşinqton, Dauntaun Mərkəzi, Qabaqcıl Beynəlxalq Tədqiqatlar Məktəbinin R.Sidney və V.Elza Mason, Boloniya Mərkəzi, Con Vork Cerret, JSkolarşip kitabxanalarını, Alan Mason çisni Tibb, Ferdinand Hamburger Universitet, Pibodi İnstitutu arxivlərini qeyd etmək olar.

Dünyanın başqa universitetlərində olduğu kimi, Con Hopkins Universitetinin tələbələri də buradakı yataqxanalarda yaşayaraq təhsil alırlar. Lakin bu təhsil ocağında yataqxanalarla tam təminat əsasən I-II kurs tələbələri üçün nəzərdə tutulub. Con Hopkins Universitetində təbiətin mühafizəsi üzrə müxtəlif proqramlar həyata keçirilir, elektriklə işləyən nəqliyyat vasitələri yaradılır, suya qənaət edilir, təbii qidalara üstünlük verilir və s. Tələbələr nəqliyyat vasitəsi kimi velosipedlərdən istifadə edirlər.

Universitet Amerika iqtisadiyyatına ən çox gəlir verən ali məktəblərdən biridir. Con Hopkins Universitet Hospital və səhiyyə sistemi hər il ölkə iqtisadiyyatına 10 milyard dollar gəlir verir.

## Büdcəsi və təhsil haqları

Con Hopkins Universitetinin 2015-ci maliyyə ilində gəlirləri 5.172.257, xərcləri 5.091.368 dollar olub. Universitetin 2015-ci maliyyə ilində endaument fondunun həcmi 3.413 milyard dollar təşkil edib. Ali məktəbin 2015-2016-cı tədris ilində tələbələrinin sayı 21372 nəfər olub. Onlardan 6357 -si bakalavr, 15015-i magistrdir. Tələbələrin 48 faizini oğlanlar, 52 faizini qızlar təşkil edir. Universitetin prezidenti Ronald Daniels, rektoru Robert Liebermandır. Universitetdə illik təhsil haqları təhsil səviyyələri, ixtisaslar və kampuslar üzrə dəyişir. Ötən tədris ilində illik təhsil haqları bakalavriat səviyyəsində 48710 , magistratura səviyyəsində 43000 dollar olub. 2015-2016-cı tədris ilində əlavə xərclər də (14540 dollar) nəzərə alınmaqla tələbələrin ümumi xərcləri 63250 dollar təşkil edib.

2016-2017-ci tədris ili üçün isə yeni təhsil haqları müəyyən olunub. Beləliklə, yeni tədris ilində *bakalavrlar* üçün illik təhsil haqları karyera və biznes məktəbində 46000, mühəndislik məktəbində 50410, pedaqoji institutda 44122, incəsənət və elmlər məktəbində 50410 dollar, *magistr* səviyyəsində beynəlxalq tədqiqatlar məktəbində 45142 dollar (Vaşinqtonda), 34955 dollar (Bolonyada), incəsənət və elmlər məktəbində 50410, karyera biznes məktəbində 57000, təhsil məktəbində 39000, mühəndislik məktəbində 50410, tibb məktəbində 50161, tibb bacısı məktəbində 37056-50624, tədris məktəbində 44122, ali sağlamlıq məktəbində 63300, *doktorantura* səviyyəsində beynəlxalq tədqiqatlar məktəbində 45142 (Vaşinqton), 34955 (Bolonya), incəsənət və elmlər məktəbində 50410, təhsil məktəbində 43923, mühəndislik məktəbində 50410, tibb məktəbində 50161, tibb bacısı məktəbində 29196-41360, tədris məktəbində 44122, ali sağlamlıq məktəbində 50640 dollar müəyyən olunub.

Con Hopkins Universitetində tələbələr üçün müxtəlif təqaüd proqramları vardır. Ali məktəbdə xüsusən də istedadlı və təhsil uğurları ilə seçilən, lakin aztəminatlı ailələrdən olan tələbələr üçün müxtəlif güzəştli proqramlar həyata keçirilir. Ötən tədris ilində universitet müxtəlif təqaüd proqramlarına 70 milyon dollar vəsait xərcləyib. Azgəlirli ailələrdən olan tələbələrə 200 min dollar həcmində qrant ayrılıb.

Universitetdə tələbə-müəllim nisbəti 10:1-dir. Siniflər əsasən 10 nəfər tələbədən təşkil olunur. Tələbələrin 97 faizi bu ali təhsil ocağında təhsil almalarından məmnundur. Ali məktəbi diplomla bitirən məzunların sayı 94 faiz təşkil edir. Ali məktəbə qəbul olmaq çox çətindir. Hər il sənəd verən abituriyentlərin yalnız 15 faizi tələbə adını qazanır. Əcnəbi vətəndaşlar amerikalılar kimi eyni tələblər əsasında universitetə qəbul ola bilər. Abituriyentlər maddi vəziyyətlərinin təhsil haqlarını ödəməyə imkan verməsi barədə arayış və eləcə də dil bilikləri (TOEFL-600 bal, IELTS- 7 bal) üzrə test nəticələrini təqdim etməlidirlər. Sənədlər yanvarın 1-ə kimi təhvil verilməlidir.


Universitetin kitabxanası


Universitetin kampusunda


Universitetə yeni qəbul olunmuş tələbələr

Con Hopkins Universitetinin missiyası tələbələrə elm öyrətməklə yanaşı, onlara həyat dərsi keçmək, müstəqil tədqiqatlara sövq etmək, eləcə də elmə dəyərli töhfələr verməkdir.

## Məşhur məzunları

Universitetin məzunları arasında tanınmış dövlət və siyasi xadimlər var. Onlardan Vudru Vilson (ABŞ-ın 28-ci prezidenti), Madlen Olbrayt (ABŞ-ın sabiq dövlət katibi), Spiro Eqnyun (ABŞ-ın sabiq-vitse-prezidenti), Aniş Çopra (ABŞ-ın sabiq baş texnologiya rəisi), Enn Dersi (ABŞ-ın Azərbaycandakı keçmiş səfiri), Nikolas Börns (ABŞ dövlət katibinin siyasi işlər üzrə sabiq müavini), İbrahim Qəmbəri (BMT baş katibinin sabiq müavini), Lourens Di Rita (Pentaqonun sabiq məruzəçisi), Devid Yakobson (ABŞ-ın Kanadadakı sabiq səfiri), Məhəmməd Zubair Xan (Pakistanın sabiq ticarət naziri), Hans Huqervorst (Niderlandın sabiq səhiyyə naziri), Maykl Blümberq (Nyu-York şəhərinin 108-ci meri), Uanq Cuancyanın (Çinin BMT-dəki sabiq səfiri) adlarını çəkmək olar.

Universitet dünya elminə son 140 il ərzində 36 Nobel mükafatı laureatı bəxş edib. Onlardan Piter Aqr (kimya üzrə), Ceyms Frank (fizika üzrə), Riçard Aksel (tibb üzrə), Pol Qrinqard, Jozef Olencer, Hamilton Smit, Tomas Morqan (tibb və fiziologiya üzrə), Robert Foqel, Merton Miller (iqtisadiyyat üzrə), Codi Uilyams (sülh üzrə) göstərmək olar. Hazırda universitetdə 4 Nobel mükafatı laureatı çalışır. Universitet alimlərindən 52 nəfər Amerika Elmlər və İncəsənət, 27 nəfər Milli Elmlər, 4 nəfər Mühəndislik İşi Elmlər akademiyalarının, 57 nəfər ABŞ Milli Elmlər Akademiyası Tibb İnstitutunun üzvləridirlər. Alimlərdən 6 nəfəri Lasker, 6 nəfər Mak -Artur, müəllimlərdən 2 nəfər ABŞ Prezidenti Azadlıq medalına, bir nəfər Puiltezer mükafatına layiq görülüblər. Universitetin 130-dan artıq məzunu müxtəlif ölkələrin diplomatik korpuslarında təmsil olunur. Keçmiş məzunlardan ümumi hesabla 16000 nəfər bu gün dünyanın 140 ölkəsində çalışır.

**Oruc MUSTAFAYEV,**
*"Azərbaycan müəllimi"*